## Azərbaycan Respublikasında sizə qarşı insan alveri cinayətinin törədilməsinə yol verməmək üçün:

- Əmək fəaliyyəti ilə məşğul olarkən əmək müqaviləsi bağlayın!
- Digər şəxslərin sizin maddi və sair asılılığınızdan istifadə etməsinə yol verməyin!
- Şəxsiyyətinizi təsdiq edən sənədlərin digər şəxslər tərəfindən alınıb saxlanılmasına yol verməyin!
- Hərəkət azadlığınızın, telefon rabitə və internet vasitələrindən istifadənizin qanunsuz məhdudlaşdırılmasına yol verməyin!
- Əmək müqaviləsindən kənar işlərə məcbur edilmənizə yol verməyin !
- Sizə qarşı edilmiş zorakılıq hərəkətləri barədə dərhal polisə müraciət edin!

## Sizə xarici ölkədə təhsil almaq təklif olunur ?

- Təhsil almaq təklif edən şirkətin və ya fiziki şəxsin bunun üçün icazəsinin olmasını tələb edib tanış olun!
- Sizinlə bağlanılacaq müqavilənin şərtləri ilə tanış olun!
- Xarici ölkəyə sizin üçün təhsil vizası alındıqdan sonra gedin!

## Sizə xarici ölkədə ailə qurmaq təklif olunur ?

- Sizə evlilik təklif edən şəxs barədə məlumatlar əldə edin! (siz bu məlumatları həmin şəxsin vətəndaşı olduğu ölkənin Azərbaycan Respublikasındakı nümayəndəliyinə də sorğu verməklə əldə edə bilərsiniz.)
- Sizə evlilik təklif edən nikah agentliyinin bu fəaliyyətlə məşğul olmaq üçün lisenziyasını tələb edin!
- Sizinlə evlənmək üçün nikah agentliyinə müraciət etmiş şəxs barəsində tərtib olunmuş xüsusi anketlə tanış olun!

# UNUTMAYIN!

**İnsan alverinə və ya məcburi əməyə məruz qalmısansa**
**152-yə ZƏNG ET!**

**Если ты пострадал(а) от торговли людьми или принудительного труда**
**ПОЗВОНИ 152**

**If you suffered trafficking in human beings or forced labour**
**CALL 152**




**İnsan Alverinə Qarşı Mübarizə Baş İdarəsi**
Əlaqə telefonu: +99 412 590 20 49
Faks: +99 412 590 20 48

Azərbaycan Respublikası
DAXİLİ İŞLƏR NAZİRLİYİ

# İNSAN ALVERİNƏ QARŞI MÜBARİZƏ BAŞ İDARƏSİ




# İNSAN ALVERİNİ DAYANDIRAQ!



HUMAN BEINGS NOT FOR SALE

## Azərbaycan Respublikası Konstitusiyası:

• Maddə 28.(3-cü bənd) Qanuni surətdə Azərbaycan Respublikasının ərazisində olan hər kəs sərbəst hərəkət edə bilər, özünə yaşayış yeri seçə bilər və Azərbaycan Respublikasının ərazisindən kənara gedə bilər.

• Maddə 35.(3-cü bənd) Heç kəs zorla işlədilə bilməz.

## İnsan alveri cinayətinin törədilmə formaları

– məcburi əmək, cinsi istismar, köləlik, insan orqan və toxumalarının çıxarılması, şəxs üzərində qanunsuz biotibbi tədqiqatların aparılması, qadının surroqat ana kimi istifadə olunması, uşaq alqı-satqısı.

# D İ Q Q Ə T !

**Sizə və ətrafınızda olan şəxslərə qarşı bu cinayətlərdən hər hansı biri törədildikdə dərhal Daxili İşlər Nazirliyinin İnsan Alverinə Qarşı Mübarizə Baş İdarəsinin nəzdində 24 saat ərzində pulsuz fəaliyyət göstərən 152 qaynar xətt telefon xidmətinə müraciət edin!**

**Azərbaycan Respublikası hüdudlarından kənarda sizə qarşı insan alveri cinayətinin törədilməsinə yol verməmək üçün**

## UNUTMAYIN!

• Sərhədi qanunsuz olaraq saxta sənədlərlə keçməyə çalışmayın !
• Şəxsiyyətinzi təsdiq edən sənədi heç kimə etibar etməyin!
• Getdiyiniz ölkəyə daxil olmaq üçün Sizə verilmiş vizanın zəmanət qaydalarına riayət edin!
• Getdiyiniz ölkədə vizada müəyyən olunmuş müddətdən artıq qalmayın!
• Getdiyiniz ölkədə uzun müddət qalmağınızı planlaşdırırsınızsa müvəqqəti yaşamaq icazəsinin alınması üçün həmin dövlətin müvafiq dövlət qurumuna müraciət edin!
• Xarici ölkədə əmək fəaliyyəti ilə məşğul olmaq istədikdə əmək vizası alın!

## Sizə xarici ölkədə əmək haqqı yüksək olan iş təklif olunur ?

• İş təklif edən şirkətin və ya fiziki şəxsin bunun üçün xüsusi icazəsinin (lisenziyasının) olmasını tələb edib tanış olun! (Bu şirkətlərin siyahısını Azərbaycan Respublikası Ədliyyə Nazirliyi və Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən də əldə etmək mümkündür.)
• Xarici ölkədə sizi işlə təmin edəcək şirkət və ya fiziki şəxs barədə məlumatları və bağlanacaq əmək müqaviləsinin surətini tələb edin.
• Xarici ölkədə əmək fəaliyyəti ilə məşğul olmaq istədikdə əmək vizası alın və əmək vizasının alınması üçün həmin şirkətə və ya fiziki şəxsə müraciət edin!

## Bağlanacaq əmək müqaviləsində göstərilməlidir:

• əmək müqaviləsinin qüvvədə olma müddəti
• əmək müqaviləsinin tərəfləri
• tərəflərin öhdəlikləri
• yerinə yetirəcəyiniz iş
• müqavilənin ləğv olunma şərtləri
• müəyyən olunmuş iş saatları
• müəyyən olunmuş iş şəraiti
• əmək haqqının məbləği
• müqavilənin ləğv olunması qaydası
• gediş-gəliş xərcləri
• istirahət vaxtı və şəraiti
• qidalanma şəraiti
• yaşayış şəraiti
• sığorta qaydaları (əməyin və sağlamlığın sığortası)

## Xarici ölkədə hüquqlarınız pozulduğu halda Azərbaycan Respublikasının həmin ölkədəki nümayəndəliyinə (səfirlik və konsulluq) müraciət edin!

| № | ÖLKƏ | TELEFON | FAKS |
|---|---|---|---|
| 1 | BƏƏ-nin Abu-Dabi Əmirliyi<br>Dubay Əmirliyi | (+9712) 666-28-48<br>(+9714) 288-37-27 | (+9712) 666-31-50<br>(+9714) 388-37-36 |
| 2 | Türkiyə Respublikası | (+90312) 491-16-79/81/82/83 | (+90312) 492-04-30 |
| 3 | Pakistan İslam Respublikası | (+9251) 260-07-03/04 | (+9251) 260-07-20 |
| 4 | İran İslam Respublikası | (+9821) 2255-42-55<br>(+9821) 2255-82-99 | (+9821) 2255-81-83 |
| 5 | Rusiya Federasiyası | (+7495) 629 43 32<br>(+7495) 629-16-49 | (+7495) 629-55-46 |
| 6 | Hindistan | (+9111) 2615-22-28 | (+9111) 2615-22-27 |
| 7 | Malayziya | (+603) 4252-68-00<br>(+603) 4253-48-00 | (+603) 4257-18-00 |

**QAYNAR XƏTTƏ ZƏNG EDİN!**
**+994 12 562 21 12**